## *COĞRAFİYANIN TƏDRİSİ METODİKASI*

# DÜNYANIN İQTİSADİ VƏ SOSİAL COĞRAFİYASI FƏNNİNİN TƏDRİSİ VƏ İDARƏ OLUNMASI PROBLEMLƏRİ

**Nəzakət Zamanova,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: znazakat@mailru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* O.K. Alxasov,
*coğr.ü.fəls.dok.* M.İ. Verdiyeva

***Açar sözlər***: *qlobal təhsil, effektiv planlama, fərqlilik gətirmə*
***Ключевые слова***: *глобальное образование, эффективное планирование, обеспечение разнообразия*
***Key Words***: *Global education, effective planning, bringing the diversity*

Təhsilin tarixi insanlıq tarixi qədər qədimdir. Bu gün təhsil zaman və məkan hüdudlarına sığmır. Elə bir dövrdə yaşayırıq ki, biliklər qısa zaman kəsiyində yenilənir. Təhsil milli çərçivədən çıxıb beynəlmiləlləşir. Bu gün Azərbaycan tələbəsi, eyni zamanda müasir texnologiyalar və kommunikasiya vasitəsilə qlobal bir tələbəyə çevrilir.

Qloballaşma Yer kürəsində bütün ictimai həyatın beynəlmiləlləşməsi, milli iqtisadiyyatın vahid dünya sisteminə qovuşmasıdır. Belə olan surətdə təhsil həm yerli, həm bəşəri bir təhsilə çevrilir, həmçinin həm yerli, həm beynəlxalq proseslərə cavab verən gənclərin yetişdirilməsi günümüzün tələbinə çevrilir. İdraki bacarıqlarına mədəni imkanların formalaşdırılması, çoxdillilik, və bir çox tələblərə cavab verən kadr yetişdirməliyik.

Müstəqilliyimizin ilk günlərindən bu günə qədər təhsildə əsaslı dəyişikliklər edilmiş, çoxlu sayda qanun və bu qanuna uyğun qərarlar qəbul edilmişdir. Təhsil strategiyasının prioritet məsələlərindən olan, müasir tələblərə cavab verən ömrü boyu təhsili təmin edən təhsil infrastrukturunun, həmçinin təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması yolları diqqət mərkəzində verilir. Bazar iqtisadiyyatı dövründə təhsil ocaqlarımızın dünya təhsil sisteminin bir hissəsinə çevrilməsi hədəfimizə çevrilir. Elə ölkələr var ki, məsələn Avstraliya 2005-2006 cı illərdə təhsil esportu ölkə büdcəsinə 10 milyard Avstraliya dolları gətirmişdir. Xarici tələbələrin gətirdiyi pullar ABŞ kimi nəhəng iqtisadiyyata malik ölkənin beşinci ən böyük xidmət iqtisadiyyatıdır. Ölkəmizi də beynəlxalq tələbə mərkəzinə çevirmək olar. Ölkəmizin yerləşdiyi coğrafi məkan, qərblə şərqin qovuşması, beynəlxalq nəqliyyatların kəsişməsi, əlverişli iqlim şəraiti, tolerantlığımız, bizim istənilən, arzu edilən, təhsil almaq üçün əlverişli məkana çevirir. Ali təhsil ocaqlarımızda əcnəbi tələbələrin sayını artıra bilərik. Bunun üçün təhsil və tədrisi dünya standartları səviyyəsində qurmalıyıq. Xüsusilə fənlərin tədrisi fəaliyyətində biz müasir yəni qlobal tələbəyə nələr verə bilirik, hər şeydən əvvəl fənnin tədrisində tələbənin gözləntiləri nələrdir, ilk öncə bunu bilməliyik. Sırf fənnin tədrisi bəlkə təhsildə ən kulminasiya nöqtəsidir. Şagird, yaxud tələbənin tədris prosesində yəni həmin dərsdə onun intellekti, milli mənlik şüuru yaranır, öyrənci tədrisin dəqiqələri sonu nələrsə əldə edir, onun həyatında dəyişmələr baş verir. Tədrisin hər dəqiqəsi təhsil üçün ən qiymətli zamandır. Biz bu zamanı yetərincə dəyərləndirə bilirikmi. Hər hansı fənnin tədrisində hədəflər, əhatə dairəsi, dəyərləndirmə, deyə fənni tədrisinə çalışırıq. Xüsusilə müəllimin bacarıqları: ümumi intellekti; mövzu sahəsi bilgisi; məslək bacarığı və hər şeydən öncə müəllim; təlim müddətini planlama; fərqlilik gətirmə; təlim müddətində səmərəli istifadəsi; şagird və tələbənin inkişafını müşahidə etmə, əsasında dərsi tədris etməyə çalışırıq. Nə qədər nail oluruq, buna maddi-texniki baza imkan verirmi?

Elmdə və təhsildə beynəlxalq təcrübəni göz ardı edə bilmərik. Sırf Dünyanın iqtisadi və sosial coğrafiyası fənnin tədrisində konkret tələbəyə nələr verə bilərik:

Dünya ölkələri içərisində ölkəmizin yeri mövqeyi, eyni zamanda geosiyasi mövqeyi diqqətlə incələnməlidir.

Ölkələrdən nələri özümüz üçün örnək götürə bilərik?

Ölkəmizlə əlaqəli hansı müstəvidə qurulmalı?

Dərs tədqiqatyönlü olmalı konkret olaraq hər dərs elə tapşırıqlarla verilməli ki tələbə yaradıcı olsun. Hafizə biliyi yox problemi həll edə bilsin, mühakimə yürütsün, dəyərləndirə bilsin, məsələn Sinqapur kimi ölkəni özümüz üçün örnək götürərək öz ölkəmizdə nələr edə bilərik , təhsilini, iqtisadi inkişafının sirlərini öyrənib tətbiq edə bilərik. Özünəməxsus inkişaf yolu, tələbələrə tədqiqatyönlü araşdırmalar verilməli. Elm tutumlu rəqabətliliyə davamlı məhsulların istehsalı, turizmin də özünəməxsus inkişaf yolu bizim üçün nümunə ola bilər. Ələtdəki Azad iqtisadi zonadakı iş prinsipini Sinqapurdakı iş prinsipindən istifadə etmək olar. Qarşılıqlı əməkdaşlığı daimi inkişafda saxlamalı, tədrisində fənlərin ümumiləşərək sırf tədqiqat yönümlü istiqamətə çevrilməsi bizim üçün də əlyetən olmasına çalışmalıyıq.

Fənnin tədrisində müəllim bilik verən yox, tələbə ilə birlikdə tədqiqat aparan, istiqamətləndirən, bacarıqlar qazandıran yön verən rolda olmalıdır. Bir auditoriya saatında maksimum nələr qazanmaq olar, nələr əldə edə bilərik? Düşünsək ki, auditoriyada müəllim tək, tələbələr çoxdur, demək informasiyada çox olan tərəfdədir. Belə bir deyim var yaxşı müəllim əvvəlcə tələbələrini öyrətməli ,sonra ondan öyrənməli. Nəzərə alsaq ki informasiya bolluğunda yaşayırıq, bu da əsas verir ki, biz düzgün istiqamət verdiyimiz tələbələrimizdən də öyrənə bilərik, biz buna hazırıqmı?

Elə fənlər var ki, onlar tələbəyə heç nə vermirsə başqası ilə əvəz edə bilərik.

Nanotexnologiya, bio-tibbitexnologiya, genom kimi yeni elm sahələrini təhsilimizə gətirməliyik.

**Problemin elmi yeniliyi və praktik əhəmiyyəti** Ali təhsildə elmi araşdırmalarla uğur qazana bilərik bu təhsilin istənilən sahəsində və əlbəttə ki fənlərin tədrisində də ən vacib şərtlərdən biridir.

Hər fakültənin ingilis dili şöbələrinin açılması ən vacib və qaçınılmaz tələblərdən biridir. Tələbatdan asılı olaraq başqa beynəlxalq dillərdən də istifadə etmək olar.

**Problemin aktuallığı.** Təhsil islahatının əsas məqsədi insanlara təhsil alma imkanları yaratma və təhsilin keyfiyyətini artırmaqdır. Bizim universitetdə qlobal təhsilə cavab verən, proqram hazırlanmalı. Əvvəlcə dəqiq elmləri götürə bilərik, sonra təklif edə bilərik ki, fizika riyaziyyat və s. Fənlərindən müəllim hazırlayırıq. Ən azından inkişafda olan ölkələri cəlb edə bilərik. 57 islam ölkəsini nəzərə alsaq, ölkəmizdə beynəlxalq tədbirlərin keçirildiyi və tanındığını nəzərə alsaq bunu bacara bilərik. Təhsil müəssisəmizi əl çatan edə bilərik. Bu da insan fəaliyyətinin bütün sahələrində olduğu kimi təhsildə keyfiyyətli təhsil vermə yolu ilə əldə edə bilərik. Beynəlxalq standartlara cavab verən proqramla əcnəbi tələbəni cəlb edə bilərik. Keyfiyyət hər kəsin öz işində məsuliyyəti dərk etməsi təhsil ocağında iş mədəniyyətinin hökm sürməsidir. Keyfiyyət hamının iştirakıdır, davamlı inkişafa yönələn sistem və üsulların hökm sürməsidir[1].

## ƏDƏBİYYAT

1. H. İsaxanlı. Müasir dünyada təhsil sistemində nələr baş verir və 2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı-necə olsa yaxşıdır? Bakı: Xəzər Universiteti nəşriyyatı, 2008.
2. H.M. Əhmədov Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.
3. https://www.youtube.com/watch? v=5AUMhkK1J1A - insan kapitalı (youtube inkişaf)

**Н.И. Заманова**

## МИРОВАЯ ЭКОНОМИЧЕСКАЯ И СОЦИАЛЬНАЯ ГЕОГРАФИЯ - ПРОБЛЕМЫ УПРАВЛЕНИЯ И ОБУЧЕНИЯ ПРЕДМЕТА

***РЕЗЮМЕ***

В этой статье упоминаются инновации в образовании, глобальность образования и интеграция в систему мирового образования. Упоминается, что предпочтение отдается применению инноваций в образовании и исследовательским исследованиям. Показаны проблемы в обучении предметов и пути

их решения. В статье показаны предстоящие задачи в области образования и обучения. В частности, задачи педагога и ученика в учебных заведениях.

**N.I. Zamanova**

**WORLDS ECONOMIC AND SOCIAL GEOGRAPHY – PROBLEMS OF THE MANAGEMENT AND THE EDUCATION OF THE SUBJECT**

***SUMMARY***

In this article, there is mentioned about innovations in the education, global education and the integration to world education system. It is mentioned that, preference is given to apply innovations in the education, and to research-oriented investigations. There is shown the problems in the education of the subjects and the ways of solving them. In the article, there is shown upcoming tasks regarding the education and teaching. Especially, in the educational institutions, the tasks of the educator and the student was commented.

**Redaksiyaya daxil olub:** 14.12.2017